

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır.*

*Heydər Əliyev (imza)*


# ŞƏRQ QAPISI

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

*Sayı: 06 (19.920)*

*13 yanvar 2010-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

*E-mail:serqqapisi@nakhchivan.az*

*Qiyməti 20 qəpik*




*Günün sözü*

Biz ölkəmizi idarə edərkən, ilk növbədə, onun kimi, Heydər Əliyev kimi, öz siyasətimizi xalqın inamına arxalanaraq xalqın iradəsi ilə aparırıq. Bu, hər bir ölkənin uğurlu inkişafı üçün başlıca şərtdir. Bütün başqa amillərlə bərabər, ən başlıca şərt xalqla iqtidar arasında olan birlikdir, aparılan siyasətə xalq tərəfindən olan dəstək və bütün cəmiyyətin ümumi bir ideya ətrafında, milli ideya ətrafında birləşməsi və vətəndaş həmrəyliyidir. Bu ideyanı–azərbaycançılıq fəlsəfəsi, azərbaycançılıq ideologiyasını da Heydər Əliyev bizə əmanət edib. Bu, bizim dövlətimizin əsas ideoloji sütunudur.

**İlham ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti***

## Ordubadda tarixlə müasirlik vəhdət təşkil edir

Ordubad Şərqin memarlıq ənənələrini özündə yaşadan, zəngin milli ornamenti, özünəməxsus memarlıq üslubu ilə seçilən tarixi abidələri, böyük mütəfəkkirləri, alimləri, şair və yazıçıları ilə bütün dünyada məşhurdur. Son illər Ordubad rayonunda həyata keçirilən quruculuq işləri tarixi abidələri, görkəmli şəxsiyyətlərin ev-muzeylərini də əhatə etmişdir. Ordubad şəhərindəki bir sıra tarixi abidələr bərpa olunmuş, akademik Yusif Məmmədəliyevin ev-muzeyi yenidən qurulmuşdur.

Bu tədbirlərin davamı kimi Ordubad şəhərindəki Şərq hamamı tarixi abidəsi, Məmməd Səid Ordubadinin ev-muzeyi bərpa və yenidənqurma işlərindən sonra yanvarın 12-də istifadəyə verilmişdir.

***Ardı 2-ci səhifədə***

## Mübarizə əzmi və qəhrəmanlıq tarixi

*20 Yanvar xalqımızın yenilməzliyini bütün dünyaya sübut etdi*

***Hər bir xalqın tarixində əsrlər boyu unudulmayan, həm faciəli, həm də ləyaqətini əks etdirən hadisələr baş verib. 20 il əvvəl baş vermiş 20 Yanvar faciəsi də Azərbaycan xalqının qan yaddaşına hopmuşdur. Xalqımız övladlarının fədakarlığını, unudulmaz xatirəsini hər il dərin ehtiramla yad edir. Torpaq şəhid qanı ilə suvarılanda müqəddəs olur. 20 Yanvar gecəsi şəhid olanların, xalqımızın qəhrəmanlıq tarixini yazanların həyatı gələcək nəsillər üçün örnəkdir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: "O, ayrı-ayrı insanlara edilən qəsd, təcavüz deyildir. Bütün Azərbaycan xalqına, Azərbaycan millətinə, Azərbaycan ölkəsinə edilən hərbi təcavüz idi. Bu təcavüz nəticəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır".***

Qanlı hadisələri törədənləri bu gün tarix də, xalqımız da nifrətlə xatırlayır. Çünki həmin hadisələr təkcə Azərbaycana qarşı yox, bütün bəşəriyyətə, insanlığa qarşı yönəlmiş qanlı soyqırım siyasəti idi. Müasir silahlarla silahlanmış ordu silahsız, əliyalın, günahı olmayan insanların üzərinə amansız hücuma keçdi. Sözsüz ki, sovet imperiyasının bu qanlı aksiyanı törətməkdə məqsədi xalqımızın mübarizə əzmini qırıb, onun müstəqillik arzusunu içində boğmaq idi. Amma imperiya bu qanlı aksiyanı törətməklə öz çirkin məqsədinə çata bilmədi. Xalqımız daha da mübariz oldu, heç nədən qorxmadı və öz istəyinə nail olaraq müstəqilliyini qazandı.

Bəli, həmin gün Azərbaycanın azadlıq arzusu güllləyə tutuldu, lakin müstəqillik eşqi ilə alışıb-yanan xalqın mətin iradəsini sarsıda bilmədi. Xalqın qəzəbindən qorxuya düşən o vaxtkı ölkə rəhbərləri Moskvaya qaçıb bu qanlı aksiyanı törədənlərin qoltuğunda özünə sığınacaq tapdı. Blokada şəraitində olan Azərbaycanın səsinin heç yerdə eşidilmədiyi o dövrdə öz xalqının səsinə səs verən yenə də xalqımızın ümummilli lideri Heydər Əliyev oldu.

***Ardı 3-cü səhifədə***

## Xəbərlər

### Yerli istehsal sahələrinin fəaliyyəti dəstəklənir

Muxtar respublikamızda yerli istehsal sahələrinin dəstəklənməsi, əldə olunan məhsulların sərfəli qiymətlərlə satışı üçün şəraitin yaradılması, yerli istehsal məhsullarının xaricdən gətirilən ucuz və keyfiyyətsiz malların haqsız rəqabətindən qorunması məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən idxal mallarının muxtar respublikaya buraxılması yerli istehsal sahələri nəzərə alınmaqla həyata keçirilir. Başqa sözlə, daxili imkanlar hesabına tələbatı ödəyən analoji xarici malların gətirilməsinə yol verilmir.

Yanvarın 8-də yerli istehsal tələbatı ödədiyi üçün kənardan gətirilməsi məhdudlaşdırıldığından saxlanılmış 2 ton 100 kq kartof Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə verilmişdir.

Bu tədbirlərin davamı olaraq Dövlət Gömrük Komitəsi tərəfindən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Mühafizə taboru 1 ton kartofla təmin olunmuşdur.

Elə həmin gün gömrük əməkdaşları Yaqub Budaqov adına Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserində də olmuş, akt əsasında bu sağlamlıq mərkəzinə 200 kq kartof, 38 kq soğan, 38 bağlam yumurta və 5 bağlam makaron verilmişdir.

Burada söhbət ayrı-ayrı vətəndaşların mənafeyindən deyil, muxtar respublikamızın iqtisadi qüdrətinin artırılmasından və istehsalçıların, ümumilikdə əhalinin maddi-rifah halının yüksəldilməsindən gedir. Hər kəs muxtar respublikamızda kiçik və orta sahibkarlığın inkişafına yaradılan münbit şəraitdən, yerli istehsal sahələrinin inkişafına göstərilən diqqət və qayğıdan düzgün nəticə çıxarmalı, muxtar respublikamızın iqtisadi təhlükəsizliyinə öz əməli fəaliyyəti ilə töhfə verməlidir.

**Rahil TAHİRLİ**

## Təhsil işçilərinin yığıncağı keçirilmişdir

***Babək Rayon İcra Hakimiyyətində sınaq-test imtahanlarının nəticələrinin müzakirəsinə həsr olunmuş yığıncaq keçirilmişdir.***

Rayon təhsil şöbəsinin müdiri Kamil Kazımov bildirmişdir ki, 2009-2010-cu tədris ilində sınaq-test imtahanlarında 750 nəfər XI sinif şagirdindən 381 nəfəri iştirak edirdisə, ikinci sınaq-test imtahanında 732 nəfərdən 443 nəfər iştirak etmişdir. Ötən tədris ilində 500-700 bal toplayanlar 12 nəfər idisə, bu tədris ilində 500-700 bal toplayanların sayı 16 nəfərə çatıb.

Yığıncaqda Naxçıvan MR təhsil naziri Piri Nağıyev çıxış edərək muxtar respublikada təhsil sahəsində aparılan islahatlardan, həyata keçirilən quruculuq işlərindən, sınaq-test imtahanlarının nəticələrindən və ali məktəblərə qəbulun yekunlarından danışmışdır. Qeyd olunmuşdur ki, keçirilən sınaq-test imtahanları şagirdlərin bilik səviyyəsinin yoxlanılmasında, onların təhsilə maraqlarının daha da artırılmasında mühüm rol oynayır. Müstəqil respublikamızın gələcəyi olan gənc nəslin hərtərəfli biliyə və intellektual səviyyəyə malik olması üçün hər bir pedaqoq əlindən gələni əsirgəməməli, öz üzərində işləməli, müasir texnologiyanı mənimsəməklə şagirdlərin elmin sirlərinə yiyələnmələri üçün var qüvvələri ilə çalışmalıdır.

Rayon icra hakimiyyətinin başçısı Elçin Hüseynəliyev çıxış edərək üçüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında təhsil işçiləri qarşısında qoyulmuş vəzifələrdən danışmışdır. Vurğulamışdır ki, rayonda təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, Kərimbəyli kənd orta məktəbinin məzunu Zümrüd Səfərova topladığı yüksək bala görə Prezident təqaüdünə layiq görülmüşdür.

**Hafizə ƏLİYEVA**

## Binada işlər sürətlə aparılır

*Muxtar respublikamızda həyata keçirilən abadlıq-quruculuq tədbirlərindən iri yaşayış bölgələrimizdən olan Şərur rayonuna da xeyli pay düşüb. Son illər burada bir-birindən yaraşıqlı binalar ucaldılmış, park və xiyabanlar salınmış, insanların rahatlığı təmin olunmuşdur. Həyata keçirilən belə tədbirlər sayəsində rayon mərkəzi füsunkar gözəlliyə qovuşub. Hər il olduğu kimi, qədəm qoyduğumuz bu yeniləşmə ilində də aparılan quruculuq tədbirləri uğurla davam etməkdədir.*

Hazırda rayon mərkəzində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti Şərur bazası üçün binada əsaslı təmir işlərinin aparılması göstərilən qayğının bariz nümunəsidir. Rayon icra hakimiyyətindən aldığımız məlumata görə, ötən ilin sentyabr ayından inşası "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi tərəfindən aparılan binanın çardaq hissəsi vurulmuş, hazırda istilik və elektrik xətlərinin çəkilişi, suvaq işlərinin aparılması davam etdirilir.

İnşaatçıların səy və bacarığı belə deməyə əsas verir ki, obyekt yaxın vaxtlarda kollektivin istifadəsinə veriləcək, torpaqla təmasda olan kənd adamlarının, sahibkarların bu qurumun xidmətindən yüksək səviyyədə istifadəsi üçün hərtərəfli şərait yaradılacaqdır.

**Nuray ƏSGƏROVA**

# Məmməd Səid Ordubadinin ev-muzeyinin yenidənqurma işlərindən sonra açılışı olmuşdur



Tarixi romanlar müəllifi Məmməd Səid Ordubadinin Ordubad şəhərində yerləşən ev-muzeyi görkəmli ədibin anadan olmasının 100 illiyi münasibətilə açılmışdır. Muxtar respublikamızda aparılan çoxşaxəli quruculuq işlərindən Ordubadinin ev-muzeyinə də pay düşmüş, ötən ilin yaz aylarından burada yenidənqurma işlərinə başlanılmışdır.

Yanvarın 12-də muzeyin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində çıxış edərək demişdir: Tarixi şəxsiyyətlər, ədiblər, vətənpərvər övladlar yaşadıqları yeri tanıdır, şöhrətləndirirlər. Məmməd Səid Ordubadi də dövrünün imkanlarına uyğun olaraq fəaliyyət göstərmiş, özünün qələmi ilə dövrünün ustad ədibi, ictimai xadim adını qazanmışdır. Bütün bunları nəzərə alan





ulu öndərimiz 1972-ci ildə Məmməd Səid Ordubadinin Ordubad şəhərində ev-muzeyinin yaradılması haqqında qərar qəbul etdi. Muzey o dövrdən indiyə kimi fəaliyyət göstərir və yenidənqurmadan sonra da uzun illər fəaliyyətini davam etdirəcəkdir.

Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi kimi şöhrət tapmış, "Dumanlı Təbriz", "Qılınc və qələm", "Gizli Bakı", "Döyüşən şəhər" əsərləri ilə tarixi bədii formada indiki və gələcək nəsillərə yadigar qoymuşdur. Görkəmli ədib həm də dövrünün ictimai xadimi idi. O, öz ictimai fəaliyyəti ilə "Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüş, "Lenin" və "Şərəf nişanı" ordenləri ilə təltif olunmuş, Azərbaycan Sovet Sosialist Respublikası Ali Sovetinin I-III çağırış deputatı seçilmiş, Azərbaycanın ictimai həyatında mühüm rola malik olmuşdur. Bütün bunlar ədibi Azərbaycan xalqına sevdirmiş və onun fəaliyyəti Azərbaycanın həm Sovetlər Birliyi, həm də müstəqillik illərində yüksək qiymətləndirilmişdir.

Hər dövrün özünün tələbləri olmuşdur. Sovet dövründəki tələblər yazıçılar üçün müəyyən çətinliklər yaratdığına baxmayaraq Məmməd Səid Ordubadi elə fəaliyyət göstərib ki, onun fəaliyyəti o dövrdə də, Azərbaycanın müstəqilliyi dövründə də qiymətlidir. Ona görə də belə şəxsiyyətlər ölməz, daimyaşar insanlardır. Məmməd Səid Ordubadi də belə insanlardan biridir. Ölməz ədib özünün qoyub getdiyi ədəbi irslə bu gün də yaşayır. Azərbaycan xalqının çox sevdiyi ədiblərindən biri olan Məmməd Səid Ordubadi yaratdığı əsərlərlə gələcək nəsillər üçün də bir nümunə, örnək olacaqdır. Buna görə də onun muzeyi fəaliyyət göstərməlidir. Muzey öz fəaliyyətində ədibin irsini yaşatmaqla bərabər onu təbliğ etməli, gələcək nəsillərə çatdırmalıdır. Çünki belə ədiblərimiz, ictimai xadimlərimiz hər bir dövr üçün nümunə göstərilə biləcək tarixi şəxsiyyətlərdir.

Ordubadinin ədəbi irsinin gələcək nəsillərə çatdırılmasında onun ev-muzeyi də mühüm rola malikdir. Muzeyə təkcə müəyyən saatlar ərzində fəaliyyət göstərən iş yeri kimi münasibət göstərilməməli, səmərəli fəaliyyəti təşkil edilməli, ictimaiyyətlə, məktəblərlə əlaqə saxlanılmalı, bəzi dərslərin muzeydə keçirilməsi təmin olunmalıdır. Ona görə ki, muzeydə Məmməd Səid Ordubadiyə aid 600 eksponat mövcuddur. Onların bir hissəsi muzeydə sərgilənir və tədris prosesində bu zəngin irsdən də istifadə edilməlidir.

Ali Məclisin Sədri demişdir: Məmməd Səid Ordubadi yazıçılıqla bərabər əsl azərbaycanlı kimi fəaliyyət göstərmiş, Azərbaycan xalqının ədəbiyyatının şöhrətini yüksəklərə qaldırmışdır. Ona görə də ölkəmizdə görkəmli ədibin adı daim uca tutulur. Respublikada bir sıra küçəyə, mədəni-maarif müəssisələrinə Məmməd Səid Ordubadinin adı verilmiş, Ordubad və Bakı şəhərlərində ev-muzeyləri yaradılmış, Naxçıvan şəhərində ədibin büstü qoyulmuşdur. Naxçıvan Muxtar Respublika Kitabxanasına Məmməd Səid Ordubadinin adının verilməsi də təsadüfi deyil. Kitaba hörmət nümunəsi Məmməd Səid Ordubadidən öyrənilməli və öyrədilməlidir.

Ali Məclisin Sədri Məmməd Səid Ordubadinin ev-muzeyinin yenidənqurmadan sonra istifadəyə verilməsi münasibətilə muxtar respublika ictimaiyyətini, ədib və yazıçılarını, onu sevənləri təbrik etmiş, muzeyin kollektivinə işlərində uğurlar arzulamışdır.

Açılışı bildirən rəmzi lent kəsildikdən sonra muzeyə baxış keçirilmişdir.

Məlumat verilmişdir ki, yenidənqurma işlərindən sonra genişləndirilmiş üç ekspozisiya otağı yaradılmış, muzeyin 10 nəfərlik kollektivi üçün iş otağı ayrılmışdır. Ekspozisiya heykəltəraşlıq, tətbiqi incəsənət, etnoqrafik əşyalar, ədibin həyat və fəaliyyətinə dair qiymətli sənədlər, latın qrafikası ilə dərc olunmuş kitablar ilə zənginləşdirilmişdir.

Ümummilli liderimizin 1980-ci ildə muzeylə tanışlıqdan sonra təəssüratını əks etdirdiyi xatirə kitabı, "Məmməd Səid Ordubadinin müasirləri və tədqiqatçıları", "Mollanəsrəddinçilər" fotostendləri, ədibin evində işlətdiyi məişət əşyaları muzeyin ekspoziyasında nümayiş etdirilir.

Ali Məclisin Sədri muzeyə baxış zamanı görkəmli ədibin yazdığı şeirlərin, felyetonların, tarixi romanların bu gün də öz əhəmiyyətini saxladığını vurğulamış, onun "Molla Nəsrəddin" jurnalında fəaliyyətinin ayrı-ayrı məqamlarından bəhs etmiş, muzeydə tədbirlər planının hazırlanması, muzeyin fəaliyyətinin canlandırılması ilə əlaqədar bir sıra tapşırıqlar vermişdir.

Muzeyin həyətində abadlıq işləri aparılmış, müasir istilik sistemi quraşdırılmışdır.

* * *

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Ordubad Rayon Şöbəsinə "DAEWOO NEXİA" markalı avtomobil hədiyyə etmişdir.

# Ordubad şəhərindəki Şərq hamamı tarixi abidəsində bərpa işləri başa çatmışdır



Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır". Azərbaycan tarixinin, mədəniyyətinin, folklorunun–bir sözlə, milli irs və düşüncə sisteminin unikal ifadə vasitəsinə çevrilmiş bu qədim tarixi abidələrimiz həm də müasir turizm infrastrukturu kimi müstəsna əhəmiyyətə malikdir. Odur ki, son dövrlər illər boyu yaddan çıxıb kənarda qalmış tarixi, mədəniyyət, arxeoloji və memarlıq abidələri bərpa olunur və qorunması üçün lazımi tədbirlər görülür.

Ulu öndərimizin "Azərbaycanın incisi" adlandırdığı Ordubad da tarixi-memarlıq abidələri ilə zəngindir. Belə abidələrdən biri Ordubad şəhərinin Təbriz və





Mingis küçələrinin kəsişdiyi yerdə yerləşən tarixi hamam binasıdır. Ötən il tarixi abidədə bərpa işlərinə başlanılmış və yüksək keyfiyyətlə başa çatdırılmışdır.

Yanvarın 12-də abidənin açılışı olmuşdur.

Ali Məclisin Sədri açılışı bildirən rəmzi lenti kəsdikdən sonra uzun illər fəaliyyət göstərən, Şərq hamamı kimi tanınan tarixi abidənin yenidən həyata vəsiqə alması münasibətilə Ordubad ictimaiyyətini təbrik edərək demişdir: Ordubad açıq səma altında bir muzeydir. Rayonda belə tarixi abidələr çoxdur. Bu abidələri qorumaq, onlara yenidən həyat bəxş etmək bizim hər birimizin borcudur.

Memarlıq üslubuna görə XVIII əsrə aid olan bu abidə ötən əsrin 90-cı illərinin dağıdıcı proseslərinə məruz qalmış, baxımsız bir vəziyyətə düşmüş, dağıdılmış və uzun illər istifadəsiz qalmışdı. Aparılan quruculuq işlərindən sonra yenidən həyata vəsiqə alan tarixi bina ölkə əhəmiyyətli abidədir, inventar nömrəsi var və Azərbaycan Respublikasında qorunan abidələr siyahısındadır. İstifadəyə verildikdən sonra onun qorunması burada fəaliyyət göstərən qurumların üzərinə düşən bir vəzifədir. Eyni zamanda, Ordubad rayonunun aid təşkilatları da abidənin qorunmasında iştirak etməli və məsuliyyət daşımalıdırlar.

Abidənin yenidən qurulması o deməkdir ki, buradakı tarix yaşadılacaq, gələcək nəsillərə daşınacaqdır. Onun qorunması eyni zamanda, abidəni yaradanların yüksək sənətkarlıq qabiliyyətinə malik olduqlarının göstəricisinə çevriləcəkdir. Abidə yaşadıqca gələcək nəsillər də ulu babalarının yüksək bacarığı, qabiliyyəti ilə fəxr edəcək, iftixar hissi keçirəcəklər.

Ali Məclisin Sədri Ordubadın digər abidələri kimi, Şərq hamamının da qorunacağına, ölkəmizin mədəni həyatında, turizmin inkişafında önəmli yer tutacağına əminliyini ifadə etmişdir.

Abidəyə baxış zamanı məlumat verilmişdir ki, hamam memarlıq üslubuna görə XVIII-XIX əsrlərə aid edilir. Ordubad Dövlət Tarix-Memarlıq Qoruğu tərəfindən 4/277 saylı inventar nömrə ilə qorunur. Həmin dövrdə şəhərdəki hamamları fərqləndirmək üçün bura "Yuxarı hamam" adlandırılmış və 1990-cı ilədək fəaliyyət göstərmişdir. Sovet dövründə aparılmış təmir hamamın memarlıq elementlərinin itirilməsinə səbəb olmuş, görkəminə xələl gətirmişdir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Elmi-Bərpa İstehsalat İdarəsinin mütəxəssisləri tərəfindən binada təmir-bərpa işləri həyata keçirilmişdir. Bərpa zamanı abidə ilkin görkəminə qaytarılmışdır. Burada uzun müddət solmayan rənglərdən istifadə olunmuş, fasad dekorativ kərpiclə üzlənmiş, kaşılarla naxış salınmışdır. Binanın daxilində də dekorativ kərpiclərdən istifadə edilmişdir. Günbəz hissəsi yenidən qurulmuş, üstünə latun təbəqə vurulmuşdur. Binaya şəbəkə qapı-pəncərələr salınmış, həyətdə abadlıq işləri aparılmışdır.

# Ordubadda avtovağzal və xəstəxana binaları tikiləcəkdir

Nəqliyyatın inkişafı muxtar respublikamızda diqqət mərkəzində saxlanılan sahələrdən biridir. Bu məqsədlə təkcə ötən il nəqliyyat infrastrukturunun yenidən qurulması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, 4 avtovağzal binası tikilərək istifadəyə verilmişdir.

Bu sahədə quruculuq işləri cari ildə də davam etdiriləcəkdir.

Ali Məclisin Sədri Ordubad şəhərində avtovağzal binasının tikiləcəyi əraziyə gəlmiş, obyektin layihəsinə baxmışdır.

Müasir standartlara cavab verəcək avtovağzal binası 360 kvadratmetr sahəni əhatə etməklə iki mərtəbədən ibarət olacaqdır. Binanın birinci mərtəbəsində gözləmə zalı, kassa, ikinci mərtəbəsində isə iş otaqlarından ibarət inzibati hissə yerləşəcəkdir. Həyətdə ayrı-ayrı platformalardan ibarət avtomobil dayanacağı yaradılacaqdır.

* * *

Ordubad Rayon Mərkəzi Xəstəxanası üçün yeni bina da cari ilin quruculuq ünvanlarından olacaqdır.

Ali Məclisin Sədri xəstəxananın tikiləcəyi ərazidə obyektin layihəsinə baxmışdır.

Rayon əhalisinin sağlamlığına xidmət edəcək yeni səhiyyə müəssisəsi zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olacaqdır. Xəstəxanada terapiya, cərrahiyyə, doğum şöbələri, təcili yardım, poliklinika fəaliyyət göstərəcəkdir.

Ali Məclisin Sədri yoluxucu xəstəliklər üçün korpusun yerinin dəyişdirilməsi ilə əlaqədar layihədə bir sıra dəyişikliklərin edilməsi və fevral ayında tikintiyə başlanılması barədə tapşırıq vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

